# Gəncənin Şah Abbas məscidinin yanında bir abidə var...

## *Qafqaz İslam Ordusunun burada şəhid olan 13 əsgərinin xatirəsinə ucaldılıb*

**"Gəncə xalqı türk ordusunu qarşılamaq üçün şəhər meydanına toplanmışdı. Dövlət dairələri və məktəblər tətilə çıxmış, tələbələr əsgərlərin gələcəyi yolun iki tərəfinə düzülmüşdülər. Müharibədə rusların işğal etdiyi Şərqi Anadolu bölgəsindən Cəmiyyəti-Xeyriyyə tərəfindən toplanan kimsəsiz uşaqlardan dörd yaşı olanlar da qarşılama mərasiminə aparılmışdı. Azərbaycanın müxtəlif bölgələrindəki uşaq evlərindən gətirilən bu yavrular, meydanda hazır idilər. Yolun və meydanın hər iki tərəfinə toplanan qadın, kişi, yaşlı, gənc bütün xalq, əsgərləri coşquyla alqışlayırdı. Sevincdən hər kəsin gözlərindən yaş gəlirdi. Uşaq evlərindən gətirilən bu uşaqlar əsgərlərə yaxınlaşaraq əllərindən tutur və haralı olduqlarını soruşurdular. O əsnada bir bağırış, çağırış qopdu. Doqquz yaşındakı bir uşaq atasını tanıyıb, ona doğru qaçmağa başladı. Bu qovuşmanı görən Gəncəli türklər Anadoluda bir-birini itirən və Qafqazda yenidən qovuşan ata-oğulun sevincinə ortaq oldular. Bütün meydan hıçqıra-hıçqıra sevinc göz yaşı tökürdü".**



Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə xüsusi xidmət orqanı olan Əksinqilab ilə Mübarizə təşkilatının rəisi Nağı Şeyxzamanlının bu xatirələrini həyacansız oxumaq olmur. Nizami Gəncəvinin nəslindən olan Nağı Şeyxzamanlı Nuru Paşanın, yanındakı əsgərlərlə birlikdə Gəncəyə daxil olmasını məhz bu cür təsvir etmişdi.



Əslində, tamamilə müsəlmanlardan təşkil olunan bu ordu 14 min Osmanlı əsgəri, Azərbaycan türkləri və Dağıstan könüllülərini özündə birləşdirən 20 minlik böyük bir hərbi qurum idi.

Beləliklə, bütün beynəlxalq təzyiqlərə baxmayaraq, adıçəkilən ordunun komandanı Nuru paşa 1918-ci il mayın 25-də gəncəlilərin alqışları altında şəhərə daxil oldu. Üç gün sonra Azərbaycan Xalq Cümhuriyyəti elan edildi və Gəncə paytaxt elan olundu. İki həftə sonra Gəncəyə əlavə qüvvələr yeridildi. Gəncə camaatı türk əsgərlərini yenə böyük şövqlə qarşılayıb qurbanlar kəsdi. Gəncənin Müfrəzəsi (silahlı mühafizə dəstəsi) erməni hərbi dəstələrini tərk-silah etmək məqsədilə onları mühasirəyə aldı. Erməni məhəlləsinin yaxınlığındakı Yelenedorfda (indiki Göygöl rayonu) məskunlaşan almanlarla danışıqlardan sonra onların da milisi Gəncə Müfrəzəsinə qoşuldu. Bundan sonra türk zabitləri erməni məhəlləsinə gedərək onlardan silahları təhvil verməyi tələb etdilər. Lakin ermənilər bu çağırışa məhəl qoymayıb atəş açdılar. Bütün bunlara baxmayaraq, Gəncə Müfrəzəsi iyunun 13-də və 14-də erməniləri tərk-silah etdi və vəziyyətə tam nəzarəti ələ aldı.

Bir məqamı nəzərə alaq ki, Gəncənin erməni məhəlləsində baş verən bu hadisə türk əsgərinin Azərbaycanda ilk vuruşu idi. Elə mehmetcik də Qafqazda ilk dəfə Gəncədə torpağa tapşırıldı. Sonradan bu şəhid mehmetçiklərin sayı 13 nəfərə çatdı.

...Gəncədə hər addımda Nuru Paşanın, türk əsgərlərin – mehmetciklərin izi görünür. Cavad Xan küçəsində Nuru paşanın yaratdığı Hərbi məktəb var. Aqrar universitetin binasında Azərbaycanın ilk Baş naziri Fətəli Xan Xoyskinin iş otağı muzey kimi saxlanılır. Nuru paşa burada tez-tez olurdu. Şəhərdə Nuru paşanın 1918-ci ildə yaşadığı ev də var. Bu, Nağı Şeyxzamanlının evidir. Dost idilər Nuru paşa ilə. Qeyd edək ki, Abdulla Gül xanımı ilə Gəncədə olarkən həmin evi ziyarət etmişdir.

Qafqaz İslam ordusuna və Nuru paşaya dəstək verən qanunların qəbul olunduğu Azərbaycan Milli Şurasının və Nazirlər Şurasının yerləşdiyi binalar, Qafqaz İslam Ordusu əsgərlərinin çadır qurub yaşadıqları, dahi Nizami Gəncəvinin məqbərəsi olan Şıx düzü və digər yerlər də o unudulmaz insanları, türk qardaşlarımızı xatırladır.

Nuru Paşa Gəncədə təkcə xilaskar kimi deyil, böyük türk oğlu kimi, "Bir millət, iki dövlət" tarixi kəlamının simvolu kimi xatırlanır. Görün istiqlal şairimiz Məhəmməd Hadi necə gözəl deyib:

***O gün ki, Nuri paşa***
***Gəncəyə mehman oldu,***
***Türkə əyri baxanın bağrı***
***qızıl qan oldu.***
***Çəkdi dağlar başına hilallı***
***al bayrağını,***
***Qalxdı bu Türk diyarı -***
***Azərbaycan oldu!***

Şəhərin böyük küçələrindən biri onun adını daşıyır. Büstünün təntənəli açılışı olub. Gəncə Dövlət Universitetində onun adına möhtəşəm bir kitabxana açılıb. Kitabxananın 360 kvadratmetr sahəsi, 30 minlik fondu var. TİKA-nın maliyyə dəstəyi ilə qurulan kitabxana təkcə şəhərin sakinlərinin deyil, qonaqların da böyük maraq göstərdiyi bir məkandır. AMEA-nın Gəncə bölməsi alimlərinin bu mövzuda ərsəyə gətirdikləri kitablar Türkiyənin ən böyük kitabxanasına bağışlanılmışdır.

... On yeddinci əsrin yadigarı olan Şah Abbas məscidinin qoşa minarələri yaxınlığında, Xan çinarların, iki qardaş dövlətin bayraqlarının əhatəsində mərmər bir abidə ucalır. Bu, Qafqaz İslam Ordusunun 1918-ci ildə Azərbaycana, o cümlədən Gəncəyə gəlmiş və apardığı əməliyyatlar zamanı şəhid olmuş 13 nəfər əsgərinin xatirəsinin əbədiləşdirilməsi naminə onların dəfn olunduğu yerdə ucaldılan abidədir. Abidəni tez-tez ziyarət edən gəncəlilər onu dostluq və qardaşlığın, əqidə birliyinin daha bir nümunəsi hesab edirlər.

Gəncədə qəhrəmancasına həlak olmuş türk əsgərlərinin şəhidlik tarixçəsi və onların dəfn olunduğu yerin necə dəqiqləşdirilməsinin təfərrüatlarından danışan türkiyəli diplomatlar qeyd edirlər ki, “Nuru paşa komandanlığı altında Gəncəyə gələn hərbi qüvvə heyətindən 13 nəfər əsgər (mehmətcik) bu yerlərdə təxribatlar törədən erməni yaraqlılarının tərksilah edilməsi prosesi zamanı şəhid olub. Bu haqda Nuru paşanın raportlarında da məlumat var”.

... Keçən ilin yayında təntənəli açılışı olan abidənin yanından keçən hər kəs ayaq saxlayır, şəhid olan türk qardaşlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad edir. İllər, onilliklər keçəcək, iki qardaş xalqın bir-birinə necə dayaq durmasının, sarsılmaz birliyinin simvolunu əks etdirən bu abidə əfsanəvi Nuru paşanı, 13 şəhid qardaşımızı bir daha yada salacaq, nəsildən-nəsilə ötürəcəkdir.

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin***
***bölgə müxbiri***